# YUXU

Yenə yuxu görürdüm; görürdüm ki, doğma şəhərimizdəyəm. Almaniyalı qadın dostum da mənimlə idi. Biz ikimiz, şəhərin baş küçəsində, danışa-danışa gedirdik. Mən, bəlkə tanışlardan, dostlardan birisini görə bildim deyə yanımdan keçib gedənlərə göz qoyur və diqqətlə üzlərinə baxırdım. Ancaq nə bir tanış və nə bir dostla qarşılaşırdım. Şəhərimizin adamları bütün dəyişmişdilər. Mən onları tanımırdım. Onlar soyuq baxışlarıyla yanımızdan keçir və bizdən uzaqlaşırdılar.

Biz, meyvə dükanına çatdıq. Mən meyvəsatanı tanıyırdım. İllər bundan qabaq, o, bir cavan oğlan idi. Uca boyu, sağlam bədəni, nəcib və sakit baxışları vardı. Amma indi o, tam başqa bir adam olmuşdu. Elə bil ki, bu on il onu ahıllaşdıra-ahıllaşdıra yox, əzə-əzə, dağıda-dağıda keçmişdi. Zaman daşğın bir çay kimi onun başından qara saçlarını, üzündən sağlam və hamar dərisini, gözlərindən nəcib və sakit baxışını qazıb aparmış və onların yerində öz talançı izlərini qoyub getmişdi. O, məni tanımadı; biz ondan sapsarı üzüm aldıq. Qadın dostum üzüm salxımından bir giləsini ağzına qoyanda birdənbirə o gilə böyüyüb bir şaftalı boyda oldu; mən ürəyimdə: „Bax gör necə üzümlərimiz var!” deyə dərindən sevindim.

Biz bazar ağzına çatdıq. Orda da, nə hər zamankı kimi aşı buğlanan “dovğa içən gəlsin!” çağıran Əbiş vardı, nə də dostdan-tanışdan bir iz. Birdən ürəyimdən keçdi ki, görəsən bəs bazar necə qalıb, ora da bütün dəyişib, yoxsa elə o gördüyüm bazardır?! Qadın dostuma:
- Yadındadırmı - dedim, - Almaniyada bizim bazarlar haqqında sənə danışardım, indi görmək istəyirmisən oranı?

O, “hə, hə” deyə başının hərəkəti ilə razılığını bildirdi. Biz sağ tərəfə burulub getdik. İndi bazarın başında dayanmışdıq. Ora bağlı idi, gəlib gedən yox idi. Mən bağlı dükanımızı ona göstərib dedim: “O dükanı görürmüsən? Atam ölməmişdən qabaq o bizim idi, sonra satdılar onu.” O, dinməzcə baxırdı; o, düşünürdü. Mən ona dedim ki: “Gəl indi də bazara keçək, bax gör bazar nə deməkdir!”
Biz ilk addımımızı atar-atmaz bizim arxa tərəfimizdə iki gənc oğlanın dayandığını sezib dönüb geri baxdım. Onların üz-gözlərini tük basmışdı. Onlar kinlə bizə baxır və yavaşcadan nəsə pıçıldayırdılar. Birdənbirə qorxu doldu ürəyimə: “Bəlkə bunlar bazarın xəlvət bir yerində bizə bir təhlükə yetirmək fikrindədilər?!”
Dostumun bunlardan heç bir xəbəri yox idi. Mən ona demək istəmirdim ki, onlar bizi güdürlər. Belə desəydim şübhəsiz o çox qorxacaqdı. Mən onları gördükdən sonra bazara girmək istəmirdim. Qorxurdum və bu qorxu hissi ilə bazara girmək arzusu bir-birinə qarışmış və məni çaşbaş qoymuşdu.
Elə bu zaman bazarın o başından qonşumuzun oğlu Əhədi bizə sarı gələn gördüm. Mən onu az qala on beş il olardı ki, görməmişdim. Amma o, son dəfə gördüyüm Əhəd idi, kiçik bir oğlarn. O, heç böyüməmişdi. Mən onu görüb cəsarət tapdım. O, bizdən az aralı dayanmışdı və balaca əlini uzadıb məni çağırırdı:
- Əziz, gəl! Əziz, gəl!
Onun səsində nə qədər məhrəmlik, nə qədər doğmalıq vardı! O, məni on beş il qabaqkı kimi çağırırdı. Mən onun səsində qara duman kimi ürəyimə çökən qorxunu unudub və özümü hər bir təhlükədən uzaq hiss edirdim. Bu səs məni bazara girməyə ürəkləndirir və onun mənə doğru uzanan balaca əli hər bir qorxu və şübhəni dağıdırdı. Buna baxmayaraq, bizim arxa tərəfimizdə dayanan və bizi qara baxışları ilə güdən o iki gənc oğlan yadımdan çıxmırdı.

Qadın dostuma baxdım, o da çaşbaş qalmışdı. Dönüb oğrun-oğrun  o iki oğlana baxdım. Onlardan birinin əlində qara bir təsbeh vardı. Mən uzun illər idi ki, təsbeh çevirən bir adam görməmişdim. Buna görə də özümdən asılı olmadan baxışım onun təsbeh çevirən əlində qaldı. Sonra da onun sir-sifətinə, və gözlərinə baxdım və birdən diksinən kimi oldum. O, nə qədər Əhədə bənzəyirdi! Əhəd, on beş ildən sonra mütləq belə görünə bilərdi.

Bu zaman, yenə də bazarın o başından balaca Əhədin səsi gəldi:

- Əziz gəl! Əziz gəl!

O, əlini mənə doğru uzadıb israrla məni çağırırdı. Mən amma bizim arxamızda dayanan, kinli baxışlarla məni və mənim qadın dostumu güdən və biri lap böyümüş Əhədə bənzəyən o iki oğlanın qorxusundan nə edəcəyimi bilmirdim.

1993. Bonn